***Oqtay Rza***



# *Müəllimlər*

Elmin qızıl şəfəqini yaya-yaya,
Mühəndisə, aqronoma, yazıçıya -
Hamımıza bilik verən müəllimlər,
Müəllimi yetişdirən müəllimlər!
Babalardan miras qalıb vüqarınız,
Nəsillərin taleyidir şüarınız!

Gözümüzdə gözünüzün ziyası var,
Qanımızda eşqinizin mayası var.
Ürəklərə köçürmüşük izinizi,
Yaddaşlarda yaşadırıq səsinizi.
Bizdən ötrü şölələnib gəncliyiniz,
Bizdən ötrü yoxa çıxıb dincliyiniz
Öyrənirik bu hikmətin sirri nədir:
Həyatınız hünər dolu salnamədir...

Alışdınız, çalışdınız axşam-sabah,
Cəbhəyə də yollandınız əldə silah.
Saçlarınız şəvə kimi qara idi,
Sanki qardan, təbaşirdən ağdır indi.

Nəhayətsiz qayğınızı unutmarıq,
Ömür boyu haqqınızı unutmarıq;
Unutmarıq heç bir zaman, müəllimlər!
Siz ey cəsur, gözəl insan müəllimlər!

Ədalət.-2016.-5 oktyabr.-S.4.